KEYFİYYƏT SAHƏSİNDƏ SİYASƏT

SİYASƏTİN KONSEPTUAL ƏSASI – "Azərbaycan Dövlət Dəniz Akademiyası" Publik Hüquqi Şəxsin fəaliyyətinin strateji istiqaməti müştərilərin tədris və təlim xidmətlərinə, o cümlədən dəniz nəqliyyatı mütəxəssislərinin hazırlıqlarına artan ehtiyaclarınının təmin olunması məqsədilə tələbələrə, gəmiçilik şirkətlərinin personalına və üzən heyətinə, gəmilərin layihələndirilməsi, inşaası və təmiri ilə məşğul olan müəssisə və təşkilatların personalına tədris, əlavə təhsil və ixtisaslaşdırılmış təcrübə hazırlığı sahəsində xidmətlərin göstərilməsinə yönəlmişdir.

Akademiyanın rəhbərliyi fəaliyyətinin strateji istiqamətlərini, qarşıda duran vəzifələrin yerinə yetirilməsi metodlarını və öhdəliklərini əks etdirən Keyfiyyət sahəsində Siyasəti müəyyənləşdirərək sənədləşdirmişdir.

Akademiyanın fəaliyyəti maraqlı tərəflərin mövcud və gələcək gözləntilərinin öyrənilməsinə və həyata keçirilməsinə əsaslanaraq aşağıdakıları nəzərdə tutur:

- *yüksək keyfiyyətli təhsil xidmətlərinin göstərilməsi, yerli və beynəlxalq əmək bazarının tələblərinə uyğun olan mütəxəssislərin hazırlanması vasitəsilə daxili və xarici əmək bazarlarında Akademiyanın davamlı rəqabət qabiliyyətinin və cəlbediciliyinin təmin olunması;*
- *beynəlxalq əlaqələrin və innovativ tədris texnologiyalarından istifadənin inkişafı, Akademiyanın açıq və rahat daxili mühitini təmin edən korporativ mədəniyyət sahəsində ənənələrinin qorunması;*
- *dənizçilik peşəsinin mənəvi dəyərlərinin, təcrübə və biliklərinin yüksəldilməsi və ötürülməsi məqsədilə bütün əməkdaşların Akademiyanın fəaliyyətinə cəlb edilməsi;*
- *tələb və gözləntilərin müəyyən edilməsi və keyfiyyətin təmin olunması hesabına müştəri məmnuniyyətinin artırılması;*
- *əməkdaşların lazımi ixtisas, hazırlıq və ixtisasartırma səviyyəsinin təmin edilməsi;*
- *Akademiyanın əsas biznes proseslərinin, risklərinin qiymətləndirilməsi və müvafiq qabaqlayıcı tədbirlərin müəyyənləşdirilməsi;*
- *Keyfiyyəti İdarəetmə Sisteminin İSO 9001:2015 standartının tələblərinə uyğunluğu və onun effektivliyinin daim yüksəldilməsi;*
- *Akademiyanın fəaliyyəti ilə əlaqəli olan milli və beynəlxalq normativ hüquqi aktların tələblərinə riayyət olunması.*

SİYASƏT - Azərbaycan Respublikasının Təhsil haqqında Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş Ali məktəblər haqqında Əsasnaməyə, Beynəlxalq Dəniz Təşkilatının (BDT) "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair" 1978-ci il Beynəlxalq Konvensiyasının tələblərinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 sentyabr tarixli, 361 nömrəli Qərarı ilə təsdiq olunmuş "Azərbaycan Dövlət Dəniz Akademiyası" Publik Hüquqi Şəxsin Nizamnaməsinə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin normativ aktlarına müvafiq işlənib hazırlanmışdır. Onun praktiki olaraq həyata keçirilməsi İSO 9000, 9001, 9004 fəslindən olan beynəlxalq standartlara əsaslanır.

SİYASƏTİN ƏSAS MƏQSƏDİ – peşəkar səriştəyə malik olan, milli və beynəlxalq standartların tələblərinə cavab verən, gəmiçilik sahəsinin bütün istiqamətlərinin inkişafına öz töhfələrini verə bilən rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanmasıdır.

Rektor Heydər Əsədov

"10" yanvar 2024-cü il